# Bir daha Himnimiz haqqında



**Kamil Şahverdi**

*Rəşid Behbudov Fondunun direktoru*

**II yazı**

**(əvvəli ötən sayımızda)**

***Bir neçə gündən sonra Dövlət Teleradio Verilişləri Şirkətinin həyətində Gülnarə xanımla qarşılaşdım. Mən onda AzTV-də işləyirdim. Gülnarə xanım bıldirdi ki, sabah sizin sədrin otağında komissiya üzvləri ədəbiyyat xadimləri və şairlərlə görüşəcək. Mütləq sən də iştirak edərsən. Növbəti gün günorta saatlarında həmin vaxt Dövlət Teleradio Şirkətinin sədri təyin olunmuş Elşad Quliyevin kabineti- nə yığışdıq. Komissiya üzvlərindən başqa görüşdə Bəkir Nəbiyev, Cabir Novruz, Aslan Aslanov, Qasım Qasımzadə, Fikrət Qoca, Nəriman Həsənzadə, Yaşar Qarayev, Vaqif Cəbrayılzadə (Bayatlı) də iştirak edirdi. Elan olundu ki, tezliklə himn üçün təqdim olunmuş dörd əsərə ictimai dinləmə keçiriləcək. Tofiq Quliyev sovet himnini, Vasif Adıgözəlov "Koroğlu" operasından And xorunu, Musa Mirzəyev "Ey Vətən" xorunu və Aydın Əzimov (Aydın K.Azim) "Azərbaycan marşı"nı təqdim edəcək. Ədəbiyyatçılar və şairlər sovet himninin hansı sözlərlə ifa olunacağı ilə maraqlandılar. Komissiya üzvləri bildirdi ki, hələ münasib mətn seçilməyib. Mübahisə yarandı ki, mətn seçilməyibsə, niyə ictimai dinləməyə çıxarılır? Komissiya işi yekunlaşdırmaq lazım olduğunu dəfələrlə vurğulasa da, ədəbiyyat xadimləri bunun doğru olmadığını qeyd edirdilər. Vəziyyət getdikcə gərginləşirdi. Vaqif Cəbrayılzadə əsəbi halda söylədi ki, biz niyə özümüzü dağa-daşa salırıq? Nəyə və kimə lazımdı bu? Üzeyir Hacıbəyli Azərbaycan Demokratik Respublikasının himnini yazıb, bizə miras qoyub. Vaqif Səmədoğlu və bəstəkar Aydın Əzimovla biz "Azərbaycan marşı" üzərində diqqətlə işləmişik. Himnimiz hazırdır. Səsə qoyun, qəbul edin, bitsin bu iş. Nə qədər olar, eyni fikirləri hər dəfə müzakirə edirik, sonra dağılışıb gedirik. Artıq buna heç bir əsəb dözmür. Bir addım belə irəliləyə bilmirik. Bizə mane olan nədir?..***

Vaqif Cəbrayılzadənin əsəbi çıxışından sonra Yaşar Qarayev söz aldı. Ədəbiyyatşünas alim Yaşar Qarayev bildirdi ki, "Azərbaycan marşı"nın sözlərinin müəllifi Əhməd Cavad olmasını təsdiqləyən rəsmi sənəd yoxdur. Biz himni qəbul edirik, amma söz müəllifinin kimliyini hələ də tapa bilməmişik. Azərbaycanda heç bir sənəd, dəlil, sübut yoxdur. Düzdür, mətn Əhməd Cavadın dilinə, üslubuna çox yaxındır. Ancaq nə əlyazma, nə də bu haqda başqa bir məlumat əldə olunmayıb. Türkiyəyə müraciət etmişik, orda arxiv- lərdə axtarılır. Bəkir Nəbiyev də Yaşar Qarayevin fikirlərini dəstəklədi. Vaqif Cəbrayılzadə yenidən söz alaraq bildirdi ki, mətnin Əhməd Cavada aid olmasına qətiyyən şübhə yoxdur. Onun dilidir, onun üslubudur. Komissiya sədri Firudin Cəlilov bildirdi ki, biz də Türkiyədəki dostlarla əlaqə saxlamışıq. Onlar da bu işlə məşğuldurlar. Ümid edirik ki, tezliklə bu məsələyə aydınlıq gətiriləcək.

Gülnarə Qurbanova görüş iştirakçılarına müraciət edərək bildirdi ki, bizim gənclər maraqlı bir iş görüblər. İcazənizlə Kamil Şahverdiyevə söz verək, ətraflı danışsın. Mən bizim məktəb və bağçalarda keçirdiyimiz eksperiment haqda məlumat verdim. Hamı məni maraqla dinləyirdi. Aslan Aslanov mənim çıxışımdan sonra söylədi ki, biz gənclərimizin istəyinə hörmətlə yanaşmalıyıq. Onlar bu ölkənin gələcəyidir. Qasım Qasımzadə də bizi dəstəklədiyini bildirdi və komissiya üzvlərindən xahiş etdi ki, bunları nəzərə alsınlar. Vaqif Cəbrayılzadə bildirdi ki, xalqımız, gənclərimiz "Azərbaycan marşı"nı artıq himn kimi qəbul edib. Bunu, sadəcə, rəsmiləşdirin, bitsin məsələ.

Görüş müsbət əhval-ruhiyyədə yekunlaşdı, iştirakçılar dağılışmağa başladılar. Aslan Aslanov qoluma girdi və biz birlikdə həyətə çıxdıq. Aslan müəllim mənə dedi ki, siz nə yaxşı iş görmüsünüz, mən çox fərəhləndim. Afərin sizə.

Bir neçə gündən sonra elan olundu ki, 1992-ci il may ayının 25-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında himn üçün təqdim olunmuş əsərlərin ictimai dinlənməsi olacaq. Bəstəkarlar notları filarmoniyada orkestrə təqdim etdilər. Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri məşqlərə başladı.

İctimai dinlənməyə təxminən iki həftə vaxt qalmışdı. Bir gün Aydın K.Azim dedi ki, dünən Cövdət Hacıyevlə telefonda danışmışam. Bu gün məni evinə dəvət edib. Partituraya, klavirə baxmaq istəyir. Yeri gəlmişkən, qeyd edim ki, Ramiz Nustafayevdən sonra Cövdət Hacıyev bəstəkarlardan yeganə insan idi ki, "Azərbaycan marşı"nın himn kimi qəbul olunmasının tərəfdarı idi. Onun nüfuzu, avtoriteti, peşəkarlığı çox böyük dəyərə malik idi. Yadımdadır, Dövlət Televiziyasının Səsyazma Evində bəstəkarlarla görüşdə hamı "Azərbaycan marşı"nın əleyhinə çıxış etdi. Ramiz Mustafayevdən başqa bəstəkatların, demək olar ki, hamısı bir nəfər kimi "Azərbaycan marşı"nın himn üçün yaramadığını deyəndə bayaqdan bütün olanları sakitcə dinləyən Cövdət Hacıyev səsini qaldırmadan, aramaram danışmağa başladı:

***'Himn üçün təklif olunan bütün variantlar ayrı-ayrılıqda çox qiymətli əsərlərdir. Onların hər birisi himn olmağa layiqdir. Çünki onlar hamısı böyük müəllimimiz Üzeyir bəyin əsərləridir. Bizim xoşbəxtliyimiz ondadır ki, Üzeyir bəy kimi dahi şəxsiyyətimiz var. Bizim üzərimizə böyük tarixi və məsuliyyətli missiya düşüb. Dövlətin himnini seçməliyik. Hamınızı diqqətli olmağa dəvət edirəm. Fikir verin, təklif olunan əsərlər, Aydın Əzimovun təklifindən başqa, bizə çox yaxşı məlumdur. Biz bu əsərləri sevirik, onlarla yaxından tanışıq. Amma Aydın Əzimovun təklif etdiyi əsər bizə məlum deyildi. Bu yaxınlarda biz Üzeyir bəyin bu əsəri ilə tanış olmuşuq. Bu da Aydının xidmətləri sayəsində baş verib. Mən əsəri Aydının redaktəsində bir neçə dəfə dinləmişəm. Qeyd etməliyəm ki, Aydın Əzimov yüksək peşəkarlıqla bu işin öhdəsindən gəlib. Mən onu hələ gənc yaşlarından yaxşı tanıyıram. Rektor olduğum müddətdə konservatoriyada təhsil alıb. Əsərləri həmişə məndə maraq oyadıb. Bu gün gördüyü işə görə mən Aydın Əzimova dərin təşəkkürümü bildirirəm və ona uğurlar diləyirəm.***

Mənim fikrimi bilmək istəyirsinizsə, mən Üzeyir bəyin "Azərbaycan marşı"nın himn kimi qəbul olunmasının tərəfdarıyam".

Cövdət Hacıyev danışarkən zalda tam sakitlik yaranmışdı. Hamı diqqətlə onu dinləyirdi. Canlı klassik, ağsaqqal bəstəkar çıxışından sonra üzrxahlıq edərək iclası tərk etdi. Bu çıxışdan sonra nəsə deməyin yersiz olduğu hamıya məlum idi. Komissiyanın sədri Fazil Muradəliyev iclası yekunlaşdırdı və növbəti müzakirələrin vaxtı haqqında əlavə məlumat veriləcəyini bildirdi.

İndi Aydın müəllimlə Cövdət Hacıyevin görüşü çox maraqlı idi. Ustad sənətkarın mövqeyi çox şeyi həll edirdi. Bir neçə saatdan sonra Aydın müəllimlə Cövdət Hacıyevin yaşadığı (Sahil bağının yanında, Rəssamlar İttifaqının yerləşdiyi bina) evə tərəf yollandıq. Aydın müəllim yuxarı qalxdı, mən də Sahil bağında onu gözləyirdim. İki saatdan artıq gözləməli oldum. Nəhayət, Aydın müəllim qapıda görsəndi. Çox fərəhli idi. İki saat bundan qabaq gördüyümdən tamam fərqli idi. Mən tələsik yaxınlaşdım və səbirsizliklə soruşdum: "Nə oldu, necə oldu, Cövdət müəllim nə dedi?"

Aydın müəllim gülümsəyərək, – hər şey əladır, narahat olma, gedək bir yer tapaq, oturaq, hər şeyi danışaram, – dedi.

Aydın müəllim başladı ətraflı danışmağa:

"Cövdət müəllim məni çox səmimi, çox mehriban və isti qarşıladı. Əvvəl qonaq otağında oturduq, hal-əhval tutdu. Əminə xanım (Cövdət Hacıyevin xanımı, milli rəqslərimizin mahir bilicisi, görkəmli rəqs ustası Əminə Dilbazi-K. Ş.) çay süfrəsi açdı. Çay içə-içə məndən "Azərbaycan marşı" haqqında, tarixi haqqında, bu işı necə başlamağım haqqında soruşdu. Mən ətraflı danışdım. Lap tələbəlik illərində olduğu kimi. Biz oxuyanda Cöv-dət müəllim konservatoriyanın rektoru idi. Hələ o vaxtdan mənə isti münasibəti vardı. Çayımızı içəndən sonra məni kabinetə dəvət etdi və zarafatla dedi: Çay içdik, daha bəsdi, gedək bir az işləyək. Kabinetdə partituranı məndən aldı, diqqətlə o üzünə, bu üzünə baxdı. Sonra eynəyini taxaraq özünəməxsus amiranəliklə partituranı açdı. Elə ilk andan sanki bütünlüklə Üzeyir bəyin musiqi dünyasına daxil oldu. Hər səhifəni diqqətlə yoxladı. Sona çatıb bir də yenidən əvvələ qayıtdı. Yenə eyni maraqla, eyni diqqətlə səhifələrin hamısını yoxladı. Bir yerdə dedi ki, Aydın, burda valtorna ilə trambonun yerini dəyişmək pis olmaz. Özü dedi, dərhal da davam etdi ki, yox, ehtiyac yoxdur. Hər şey yerindədi. Mən böyük, ustad bəstəkardan, dəyərli müəllimdən maraqlı təkliflər eşitmək istəyirdim. Anacaq Cövdət müəllim qətiyyətlə söylədi ki, hər şey yüksək səviyyədədi, heç nəyi dəyişmə.

Cövdət müəllim partituranı mənə qaytardı və ayağa durub məni qucaqladı. Hər iki əlimi tutub dedi: "Sən heç bilirsən, necə böyük iş görmüsən? Bu, tarixi bir işdir. Hər bir bəstəkar arzulayardı ki, bu işi görmək ona nəsib olsun. Mən çox sevinirəm ki, bu işi sən görmüsən. Halal olsun! Mən səninlə qürur duyuram. Xoşbəxtəm ki, sən mənim rektorluğum dövründə oxumusan. Çox sağ ol. Gedək bir çay da içək".



Gəldik yenə qonaq otağına. Cövdət müəllim Əminə xanımdan bizə çay verməsini xahiş etdi.

Üzbəüz oturmuşduq. Ancaq Cövdət müəllimin nəzərləri tarixin dərinliklərinə dikilmişdi. Asta-asta, sanki özüylə danışırdı:

"Qəribədir, Üzeyir bəy bu əsərlər barədə bizə heç nə deməyib. Yəqin, bizi qorumaq üçün bizdən gizlədib bunları. İstəməyib ki, başımız ağrısın...

Aydın, sən çox böyük iş görmüsən. Həm də sən Üzeyir bəyin ruhunu, nəfəsini qorumusan. Çox gözəl işləmisən bunu. Mən çox bəyəndim.

Orda (müzakirələrdə-K.Ş.) mənim fikirlərimi hamıya çatdıra bilərsən. Əgər səsvermə olarsa, mən ikiəlli sənin işinə səs verirəm. Lazım bilsələr, zəng eləsinlər, mənim fikrimi soruşsunlar. Düşünürəm ki, Azərbaycanın himni mütləq bu əsər olmalıdır".

Mən təşəkkür edib getmək üçün icazə istədim. Cövdət müəllim də qalxdı və Əminə xanımı çağıraraq dedi ki, gəl sağollaş, Aydın günümüzün qəhrəmanıdır. Əminə xanımın əlini öpüb sağollaşdım. Cövdət müəllim məni qapıya qədər ötürdü. Qapını açıb mənə tərəf döndü və dedi:

***"Aydın, mən səninlə fəxr edirəm. Çox sağ ol, belə böyük bir işi görmüsən. Xahiş edirəm, müzakirələrin nəticəsi haqqında mənə məlumat verərsən".***

***Biz Aydın müəllimlə həmin gün çox xoşbəxt anlar yaşadıq. Üzeyir bəyin tələbəsi, canlı klassik, zəmanənin böyük bəstəkarı, əvəzolunmaz pedaqoq, konservatoriya tarixinin ən dəyərli rektoru Cövdət Hacıyev "Azərbaycan marşı"na xeyir-duasını vermişdi.***

***1992-ci il mayın 25-nə sayılı günlər qalmışdı. Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında himn üçün təqdim olunmuş əsərlərin ictimai dinlənməsi olacaqdı. Əsərlərin dördü də Üzeyir bəyə məxsus idi.***